## THE MAİN PECULİARİTİES OF THE CREATİVİ WORK OF ARİF MİRZOEV

***Abbasova Svetlana Calal***

***Summary***

The art of mastering the spirit of human existence was subject to Arif Mirzaev. The article deals with the work of the Honored Art Worker of Azerbaijan (2011) Arif Mirzoev, a member of the Unions of Composers of Azerbaijan and Russia, the International Musical Society named after J.S. Bach in Leipzig and the German-Azerbaijani Forum, composer, pianist. The work of Arif Mirzoev is both very large-scale and significant in terms of innovation. The composer is the only composer of polystylistics (versatility) of modern music in our country. The composer, who deeply knows the music and style of J. S. Bach, is a promoter of the music of J. S. Bach.

***Rəyçi: müəl.Məhərrəmova S.***
***GDU-nun "Musiqi fənləri" kafedrasının 26 sentyabr 2022-ci il tarixli içlasın 2 saylı protokolu***
***Daxil olduğu tarix 12 oktyabr 2022-ci il***

**UOT:781.**

## "ÇAHARGAH" MUĞAMININ MUSİQİ-ESTETİK XÜSUSİYYƏTLƏRİ

***Əliyev Əli Sahib oğlu***
***Gəncə Dövlət Universiteti***
***polderak@bk.ru***

**Xülasə:** *Məqalə "Çahargah" muğam dəstgahının musiqi-nəzəri, estetik xüsusiyyətlərinin, ifaçılıq məsələlərinin işıqlandırılmasına həsr olunub.*

**Açar sözlər:** Azərbaycan, muğam, məqam, Çahargah, ifaçı, bəstəkar
**Ключевые слова:** Азербайджан, мугам, макам, Джахаргях, исполнитель, композитор
**Key words:** Azerbaijan, muğam, maqam, Chahargah, performer, composer

Dünyada unikal milli musiqi kimi bəşəriyyətin mədəni irsinin qızıl fonduna daxil olan Azərbaycan muğamı əsrlərlə cilallanmış, böyük təkamül və inkişaf yolu keçərək çağdaş günlərimizədək gəlib çatmışdır.

Azərbaycan xalqının ümummilli lideri, ulu öndər Heydər Əliyev Azərbaycana siyasi rəhbərliyinin bütün dövrlərində həyata keçirdiyi mədəniyyət və təhsil siyasətində milli musiqi irsinə, o cümlədən, muğamlara, onu yaşadan və öyrədən sənətkarlara dərin ehtiram və qayğı ilə yanaşmışdır.

Ulu Öndərin milli mədəniyyətin qorunması və inkişafına, tədqiqi və təbliğinə göstərdiyi diqqət və qayğılar Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyev və Heydər Əliyev Fondunun prezidenti, Azərbaycanın Birinci vitse-prezidenti çox hörmətli Mehriban xanım Əliyeva tərəfindən uğurla davam etdirilir.

Heydər Əliyev Fondunun həyata keçirdiyi "Muğam İrs", "Muğam dəstgah", "Muğam ensiklopediyası", "Muğam internet", "Muğam antologiyası", "Beynəlxalq Muğam mərkəzi" layihələri "Muğam aləmi" beynəlxalq muğam festivallarının və elmi simpoziumlarının,

“Muğam televiziya müsabiqələri”nin keçirilməsi muğam sənətinin qorunması və inkişafına xidmət edir.

Azərbaycan muğam sənətində “Çahargah” muğamı bir janr olaraq, “Çahargah” məqamı isə lad-məqam olaraq mühüm yer tutur. “Çahargah” sözü iki məfhumdan ibarətdir. Çahar – dörd, gah – məkan, yer deməkdir. Başqa sözlə “Çahargah” dördüncü dayanacaq mənasını daşıyır.

Qeyd edək ki, Azərbaycan peşəkar bəstəkarlıq məktəbinin banisi Ü.Hacıbəyli “Azərbaycan xalq musiqisinin əsasları” adlı fundamental elmi-tədqiqat əsərində Azərbaycan muğamlarının əsaslandığı lad-məqamlara həmin muğamın adını vermişdir.

Ü.Hacıbəyli hər bir muğamı bədii-ruhi təsir cəhətdən xarakterizə edərkən “Çahargah”ın həyəcan və ehtiras hissi oyatdığını bildirir [5].

Azərbaycan musiqisində yeddi əsas məqamdan biri olan Çahargah məqamının quruluşunu Ü.Hacıbəyli belə göstərir: 1/2 - 1. 1/2 -1/2 - ton formullu üç bərabər tetraxordun qovuşuq və yanaşı üsullarla (I və II tetraxordlar – qovuşuq, II və III tetraxordlar yanaşı üsülla) birləşməsindən ibarətdir; səssırası 11 pilləlidir, IV pillə mayə (tonika) pilləsidir.

Məqamın səssırasının II, IV, VI, VIII, IX (IX#), XI pillələri istinad-dayaq pilləsi kimi “Çahargah” muğamının şöbələrinin əsasını təşkil edir; bu məqamda qurulan musiqi nümunələri həmin pillələrə əsaslanır. “Do” mayəli çahargah məqamının səssırası:




Azərbaycanda “Çahargah” əsas muğam dəstgahlarından biridir. Bu muğam dəstgah vokal-instrumental şəkildə xanəndələrimiz, instrumental şəkildə isə milli çalğı alətlərində tarzən, kamança çalanlar tərəfindən böyük şövqlə ifa edilir.

Məlum olduğu kimi, muğam sənəti özünəməxsus improvizə xüsusiyyətinə malikdir. Bununla əlaqədar hər bir xanəndənin və ya sazəndənin ayrı-ayrılıqda ifaçılıq xüsusiyyəti var. Xanəndələr Ələsgər Abdullayev (1866-1929), Seyid Şuşinski (1889-1965), Əbülfət Əliyev (1926-1990), tarzən Şirin Axundov (1878-1927), kamança çalan Fəxrəddin Dadaşov (1950) və bir çox digər muğam ifaçıları “Çahargah” muğamının mahir ifaçıları kimi tanınmışlar.

Muğamın şifahi ənənəyə əsaslanan professioanal musiqi janrı kimi əsrlər boyu inkişaf edərək dövrümüzədək gəlib çatmasında xanəndə və sazəndələrin rolu danılmazdır. Müasir dövrdə muğam sənətinin qorunması, tədqiqi və gələcək nəsillərə ötürülməsi üçün muğamların səs və not yazıları mühüm əhəmiyyət daşıyır. Bu baxımdan muğamların həm vokal-instrumental, həm də instrumental ifa variantlarnın səs və not yazılarında əks olunması muğamın ifaçılıq variantlarının təhlilinə, musiqi dilinin öyrənilməsinə əlverişli şərait yaradır.

Professor R.Zöhrabov “Azərbaycan muğamları” adlı kitabında haqlı olaraq yazır: “Çahargah” muğam dəstgahının inkişafı başqa dəstgahlar kimi, eyni adlı lad-məqamda tədricən daha yüksək istinad pillələrini tutmaqla əldə edilir. Bəmdən zilə qədər bu inkişaf prinsipi muğamda qabarıq şəkildə öz təcəssümünü tapır. Onu da deyək ki, “Çahargah”ın oxuma diapazonu “Şur” dəstgahı kimi çox böyükdür – iki oktava yarım. “Çahargah” – parlaq virtuoz, qəhrəmani xarakterli, dərin dramatik məzmunlu bir dəstgahdır” [17, s. 396].

Elmi mənbələr göstərir ki, M.M.Nəvvab öz “Vüzuhül-ərqam” risaləsində “Çahargah” muğamını aşağıdakı şöbə və guşələrə bölmüşdür: “Çahargah”, “Segah”, “Zabul”, “Yeddi hisar”, “Müxalif”, “Məğlub”, “Mənsuriyyə”, “Zəmin-xara”, “Mavərənnəhr”, “Hicazi”,

"Şəhnaz", "Azərbaycan", "Əşiran", "Zəngi-şotori", "Kərkuki". Gördüyümüz kimi, M.M.Nəvab burada "Çahargah" dəstgahının tərkibinə digər başqa dəstgahlarında-məqam əsasına uyğun gələn şöbə və guşələrdən istifadə etmişdir.

Bakı muğam məktəbinin görkəmli nümayəndəsi Mirzə Fərəc Rzayevin (1847-1957) muğam cədvəlindəki şöbə və guşələr "Çahargah" məqamına, onun intonasiya xüsusiyyətlərinə qohum olan şöbə və guşələri özündə birləşdirir: "Çahargah", "Bəstə-Nigar", "Firuz", "Manəndi-müxalif", "Müalif", "Cövhəri", "Müxalif" ("Kərimabadı"), "Hasar", "Gülriz", "Zirkeş", "Rubənd", "Qürrə", "Müxalif", "Məğlub", "Mənsuriyyə", "Hüzzal", "Çahargah".

Məşədi Süleyman Mənsurov (1872-1955) Bakının musiqi məclisindəki "Çahargah" instrumenal muğam dəstgahının quruluşunu belə göstərir: "Çahargah", "Zabul", "Müxalif", "Məğlub", "Zabul-Ouc", "Mənsuri", "Bayatı-türk", "Bayatı-Qacar", "Sarənc", "Zəmin-xarə", "Zəng-bari", "Mavəra-ün-Nəhr", "Hicazi-Əcəm", "Ləhni-Ərəb", "Bəstə-Nigar", "Şüştəri-əsl", "Şüştəri-Sarənc", "Şüştəri", "Şüştəri-Bustan", "Bazəm Çahargah".

1925-ci ildə musiqi texnikumu üçün tərtib edilən proqramda "Çahargah"ın tərkibi 11 şöbə və guşədən ibarət verilmişdir: "Maieyi-Çahargah", "Bali-Kəbutər", "Bəstə-Nigar", "Manəndi-müxalif", "Hasar", "Qürrə", "Müxalif", "Məğlub", "Mənsuriyyə", "Hüzzal", "Müxalif", "Çahargah".

1935-1937-ci illərdə Mirzə Mənsur Mənsurov tar üçün tərtib etdiyi tədris proqramda "Çahargah" instrumental muğam dəstgahı səkkiz şöbə və guşədən ibarət idi: "Bərdaşt", "Mayə", "Bəstə-Nigar", "Manəndi-müxalif", "Hisar", "Müxalif", "Mənsuriyyə zərbi ilə", "Çahargaha ayaq".

Hazırda "Çahargah" dəstgahı ölkəmizdə aşağıdakı şöbə və guşələrdən ibarət bir dəsgah kimi ifa olunur: "Bərdaşt", "Mayeyi-Çahargah", "Bəstə-Nigar", "Hasar", "Müalif", "Qərrə", "Müxalif", "Mənsuriyyə", "Hüzzal", ("Zərb Mənsuriyyə") "Çahargaha ayaq".

"Çahargah" dəstgahının quruluşuna nəzər salaq. "Çahargah" muğamı "Bərdaştla" başlanır. "Bərdaşt" çoşğun xəsiyyətli, cəlb templi, geniş improvizə səciyyəli bir şöbədir. "Çahargah"da da "Bərbaşt" zil registdən başlayıb bəmə düşür və "Mayə" də müvəqqəti yekunlaşır. Sonra isə "Mayeyi" "Cahargah" şöbəsi gəlir. Bu şöbə dəstgahın bünövrəsi sayılır və onun musiqibaxımından inkişafına zəmin yaradır.

"Çahargah" dəstgahında "Bəstə-Nigar" ilk şöbələrdəndir. "Bəstə-Nigar"ın mənası surət, şəkil, gözəl deməkdir. "Bəstə-Nigar"ın musiqisi cazibəli, ahəstə, həzin melodiyalara malikdir. Bu melodiyalar dinləyicini xəyala daldırır, düşündürür.

"Bəstə-Nigar" şöbəsindən sonra "Çahargah" dəstgahında "Hasar", "Müxalif", "Qərrə" kimi mərkəz şöbələr ardıcıllaşır.

"Hasar" şöbəsi temperamentli, çoşqun səciyyəlidir. Sanki hücüm xarakterini kəsb edir. Onu da deyək ki, "Hasar" tarın şah pərdəsinə düşür. Şöbənin melodik inkişafı bütünlüklə bu pərdəyə istinad olunur.

"Çahargah" dəstgahının əsas şöbələrindən biri "Müxalif" zidd, uyğunu olmayan mənasını daşıyır. "Müxalif"in oxunub-çalınmasında həyəcan, mübarizlik ruhu da özünü nümayiş etdirir.

Zil registrli "Muxalif"dən daha da zil olan "Mənsuriyyə"yə keçirilir.

"Mənsuriyyə" iki variantda olur. Birinci-sərbəst ölçülü improvizə xasiyyətlidirsə, ikinci-müşayiəti dəqiq ölçüyə əsaslanan orijinal zərb-muğamdır. Hər iki variant "Çahargah"ın ifası zamanı bir-birilə növbələşir.

Qeyd edək ki, "Mənsuriyyə" zərb-muğamının əsas xüsusiyyəti ondan ibarətdir ki, sərbəst ölçülü vokal partiya burada instrumental muşayətin ciddi metrik fonuna əsaslanır.

Bizə "Mənsur" sözünün qələbə çalmış, üstün gəlmiş Mənsur cəngavərin adı ilə adlanması məlumdur. Məhz bu məna "Mənsuriyyə"nin musiqi məzmununun əsasını təşkil edir. Onun musiqisi mərd, qəhrəman, çağırış havasına bənzəyir. Mənsuriyyə: Qələbədir, təntənədir. "Hüzzal"da zəngilələr şaqraq, zəngin və zövnəqli olmalıdır. Bunları ifa etmək üçün xanəndədən həm texniki üsullar, həm də mahirlik və ustalıq tələb olunur.

Ü.Hacıbəyli öz əsərlərində xalqın məzlum vəziyyətini, mübarizəsini ifadə etmək üçün məhz "Çahargah" muğamının intonasiyalarına, "Çahargah" məqamına müraciət etmişdir.

"Çahargah" məqamına əsaslanan musiqi nümunələrini qeyd edək:

**Xalq musiqisi**

Mahnılar: "Budur, bir cüt qara göz", "Gəl, gəl ay ellər gözəli".

Rəqslər: "Şələxo".

**Şifahi ənənəvi professional musiqi**

Təsniflər: "Çahargah", "Bəstə-Nigar", "Hasar", "Müxalif".

Rənglər: "Çahargah" ("Mayeyi-Çahargah", "Müxalif", "Hasar", "Bəstə-Nigar").

Muğamlar: "Çahargah".

Zərbi muğamlar: "Mənsuriyyə".

**Azərbaycan bəstəkarlarının əsərləri**

Üzeyir Hacıbəyli "Leyli və Məcnun" operasından Məcnunun atasının ariyası; "Koroğlu" operasından: kəndlilərin xoru "Bu gözəl təbiət"; "Cəngi" pyesi (f-no və orkestr üçün işləyəni – İsmayıl Hacıbəyov); "Çahargah fantaziyası" Xalq çalğı alətləri orkestri üçün.

Müslüm Maqomayev "Şah İsmayıl" operasından: Uvertüra. Aslan şahın ariyası.

Asəf Zeynallı "Çahargah" fortepiano pyesi.

Əfrasiyab Bədəlbəyli "Qız qalası" baletindən: Giriş.

Cahangir Cahangirov "Azad" operasından: "Çahargah" xoru.

Qara Qarayev "Yeddi gözəl" baletindən "Vals".

Cövdət Hacıyev "Sülh uğrunda" simfonik poemasından Giriş mövzu.

Tofiq Quliyev "Bəxtəvər oldum" musiqili qəzəli.

Azərbaycan muğamlarının texniki və bədii cəhətdən dolğun ifası muğam sənətinin qanunauyğunluqlarının qorunmasını təmin edən amillərdəndir.

***Ədəbiyyat***

1. Abdullazadə G.A. Qədim və orta əsrlərin musiqi mədəniyyəti: tarixi-fəlsəfi təhlil. Bakı: Qartal. – 1996. – 292 s.
2. Əliyev İ.Q. Muğam və zaman. //Bakı:"Musiqi dünyası" jurnalı.2007, № 3-4 (33) s122-123.
3. Əlizadə F.Ə. Muğam sənəti dünya musiqisi kontekstində. // – Bakı: "Muğam" jurnalı. – 2007, №1. – s. 34-47.
4. Hacıbəyov Ü.Ə. Əsərləri. Dörd cilddə. II cild. Bakı: Azərb. EA nəşri. – 1965. – 412 s.
5. Hacıbəyli Ü.Ə. Azərbaycan xalq musiqisinin əsasları. Çap və elektron nəşri. – Bakı: Apostrof. – 2010. – 176 s.
6. Həsənova C.İ. Üzeyir Hacıbəyli yaradıcılığında milli musiqinin nəzəri əsasları. Bakı: Mars-Print. – 2009. – 320 s.
7. Həsənova C.İ. Azərb. musiqisinin məqamları. Dərs vəsaiti. Bakı:Elm və təhsil.2012. 230 s.
8. İsmayılov M.C. Azərbaycan xalq musiqisinin janrları. Yenidən işlənilmiş və tamamlanmış nəşr. Bakı: İşıq. – 1984. – 100 s.
9. İsmayılov M.C. Azərbaycan xalq musiqisinin məqam və muğam nəzəriyyəsinə dair elmi-metodik oçerklər. Bakı: Elm – 1991. – 120 s.
10. İzahlı saz-söz lüğəti. Tərtibçi: T.Məmmədov. Bakı: Ol NPKT. – 2015. – 215 s.

11. İzahlı muğam lüğəti. Tərtibçilər: T.Məmmədov, C.Quliyev. Bakı: Ol NPKT. 2015. 214 s.
12. Qurbanəliyeva S. F. Şəxsiyyət və musiqi. Bakı: Aqiloğlu – 2010. – 160 s.
13. Səfərova Z.Y. Azərbaycanın musiqi elmi (XIII-XX əsrlər). Bakı: Elm. – 1998. – 584s.
14. Şuşinski F.M. Azərbaycan xalq musiqiçiləri. Bakı: Yazıçı. – 1985. – 478 s.
15. Zöhrabov R.F. Zərbi – muğamlar. Bakı: Mars – print. – 2004. – 406 s.
16. Zöhrabov R.F. Azərbaycan rəngləri. Bakı: Mars – print. – 2006. – 250 s.
17. Zöhrabov R.F. Azərbaycan muğamları. Bakı: Təhsil. – 2013. – 336 s.

## МУЗЫКАЛЬНО-ЭСТЕТИЧЕСКАЯ ХАРАКТЕРИСТИКА МУГАМА "ДЖАХАРГЯХ"

***Алиев Али Сахиб оглы***

***Резюме***

Статья посвящена освещению музыкально-теоретических, эстетических особенностей и исполнительских вопросов мугамного инструмента «Джахаргях».

## MUSICAL AND AESTHETIC CHARACTERISTICS OF THE MUGHAM "CHAHARGAH"

***Aliyev Ali Sahib oglu***

***Summary***

The article is devoted to the illumination of the musical-theoretical, aesthetic features and performance issues of the "Chahargah" mugham instrument.

***Rəyçi: baş müəllim Haqverdiyeva N.***
***GDU-nun "Musiqi fənləri" kafedrasının 26 sentyabr 2022-ci il tarixli içlasın02 saylı protokolu***
***Daxil olma tarixi 12 oktyabr 2022-ci il***

**UOT:781.**

## KÖYKƏB SƏFƏRƏLİYEVA YARADICILIĞININ AZƏRBAYCAN FORTEPİANO MƏKTƏBİNİN İNKİŞAFINDA ROLU

***Hacıyeva Mehriban Şövkət qızı***
***Gəncə Dövlət Universiteti***
***mehriban.hajıyeva@ mail.ru***

**Xülasə*:*** *Görkəmli pianoçu-pedaqoq Köykəb Səfərəliyeva (1907-1985) Azərbaycanda fortepiano ifaçılığı sənətinin əsasını qoyan musiqi xadimlərindən biri olmuşdur.*

*Bir sıra elmi-metodik dərsliklərin, fortepiano üçün külliyatın tərtibçisi, musiqi haqqında məqalələrin müəllifi olan Kövkəb Səfərəliyeva Azərbaycanda musiqi təhsilinin inkişafında böyük rol oynamışdır.*

*Məqalədə Azərbaycan fortepiano mədəniyyətinin yaranması və inkişafı, bu mədəniyyətin görkəmli nümayəndəsi Köykəb Səfərəliyevanın yaradıcılığının musiqi təhsilinə təsiri ətraflı öyrənilmişdir.*

**Açar sözlər:** fortepiano, musiqi, məktəb, mədəniyyət, tələbə
**Ключевые слова:**композитор, фортепиано, музыка, культура, студент.
**Key Word**:coumposer,piano, school, culture, student.